## Əqli Mülkiyyət Agentliyi tərəfindən göstərilən dövlət xidmətləri

Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi 19 sayda dövlət xidmətlərini həyata keçirir. Göstərilən dövlət xidmətləri aşağıdakılardır:

1. Apellyasiya şurasına etirazın (ərizənin) verilməsi;
2. Xüsusi qorunma hüququ ilə qorunan məlumat toplularının qeydiyyatı;
3. Patent müvəkkillərinin attestasiyası və qeydiyyatı;
4. Müəlliflik hüququ və ya xüsusi qorunma hüququ ilə qorunan məlumat toplusuna hüquqların tam və ya qismən verilməsi haqqında müqavilənin rəsmi qeydiyyatı;
5. Müəlliflik hüququ obyektinin qeydiyyatı;
6. Müəlliflik hüququ ilə qorunan məlumat toplularının qeydiyyatı;
7. İxtira, faydalı model, sənaye nümunəsi, əmtəə nişanı və ya coğrafi göstəricinin reyestr məlumatlarından çıxarış verilməsi;
8. İxtira, faydalı model, sənaye nümunəsi və əmtəə nişanından istifadə hüququnun verilməsinə dair lisenziya müqavilələrinin dövlət reyestrində qeydiyyatı;
9. İxtira, faydalı model və ya sənaye nümunəsinin dövlət reyestrində qeydiyyata alınması və patent verilməsi;
10. İxrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazənin verilməsi;
11. İnteqral sxem topologiyasına əmlak hüquqlarının tam və ya qismən verilməsi haqqında müqavilənin qeydiyyatı;
12. İnteqral sxem topologiyalarının dövlət qeydiyyatı;
13. Əsərin, əlaqəli hüquqlar obyektindən istifadə ilə bağlı hüquqların (əmlak hüquqlarının) tam və ya qismən verilməsi haqqında müqavilənin qeydiyyatı;
14. Əqli mülkiyyət hüquqlarının həyata keçirilməsi və müdafiəsi ilə bağlı hüquqi məsləhətlərin verilməsi;
15. Əqli Mülkiyyət Agentliyində qeydiyyatdan keçmiş əsərlər üzrə məlumatın verilməsi;
16. Əmtəə nişanına dair hüquqların verilməsi barədə müqavilələrin dövlət reyestrində qeydiyyatı;
17. Əmtəə nişanı və ya coğrafi göstəricinin dövlət reyestrində qeydiyyatı və şəhadətnamənin verilməsi;
18. Əlaqəli hüquqlar obyektinin qeydiyyatı;
19. Audiovizual əsərin, fonoqramın, kompüter proqramının, məlumat toplusunun, kitabın nüsxələrinə nəzarət markasının verilməsi.

Qeyd olunan dövlət xidmətləri haqqında ətraflı məlumat Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin **Dövlət Xidmətləri Portalında (dxr.az)** yerləşdirilib.